HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

15 avqust 2015-ci il
№005 (05)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | “იენი იოლ” საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci ildən nəşr olunur

## TİKA RƏHBƏRİ SƏRDAR ÇAM ÖLKƏMİZƏ SƏFƏR EDİB

Müxtəlif ölkələrin inkişafında göstərdiyi yardımlara görə, TİKA (Türk İşbirliyi və Koordinasiya Agentliyi) artıq bir dünya markasına çevrilib. 3-4 avqust tarixində TİKA-nın başçısı Sərdar Çam və onu müşaiyət edən heyət Gürcüstana səfər edib. Hörmətli qonaq səfəri çərçivəsində TİKA-nın Gürcüstandakı fəaliyyəti ilə tanış olub.

TİKA rəhbəri Sərdar Çam Gürcüstanın baş naziri İrakli Qaribaşvili tərəfindən qəbul edilib.

Daha sonra türkiyəli qonaqlar Marneuli rayonundakı II Kosalı İslam mədrəsində olublar. Sərdar Çam mədrəsənin işləri ilə tanışlıqdan sonra, mədrəsədə çalışanlarla və görüşə gələn digər qonaqlarla fikir mübadiləsi aparmış, onları maraqlandıran suallara cavab vermişdir. Mədrəsədki görüş sırasında “Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı” tərəfindən TİKA rəhbə-



rinə Gürcüstandakı fəaliyyətləri, Gürcüstan və Türkiyə arasında dostluq və qardaşlıq bağlarının möhkəmləndirilməsindəki xidmətlərinə görə “Təşəkkürnamə” təqdim olunub. Cənab Sərdar Çam da öz növbəsində “Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”nın sədri Musa Hacıyevə hədiyyə təqdim etmişdir.

Sərdar Çam və onu müşaiyət edən heyət TİKA-nın həyata keçirdiyi bir çox layihələrlə tanış olmaq məqsədilə ölkəmizin müxtəlif bölgələrinə də səfər edib.

## ÇİNDƏN AZƏRBAYCANA İLK KONTEYNER QATARI GƏLİB



Azərbaycan, Qazaxıstan, Gürcüstan, Türkiyə və Çinin dəmir yolu təşkilatlarının birgə təşəbbüsü ilə ilk dəfə Çin, Qazaxıstan, Azərbaycan ərazisindən keçərək Şixezi-Dostık-Aktau-Ələt-Keşlə marşrutu ilə hərəkət edən sınaq konteyner qatarı Çinin Şixezi şəhərindən iyulun 28-də çıxıb.

Bu barədə “Azərbaycan Dəmir Yolları” QSC-nin mətbuat xidmətinin rəhbəri Nadir Əzməmmədov məlumat verib.

Qatar avqustun 3-də bərə ilə Ələt qəsəbəsində yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanına çatmışdır. Qeyd edək ki, sınaq konteyner qatarının Azərbaycan ərazisinə çatması ilə əlaqədar qarşılama mərasimi də keçirilib.

Sözügedən qatar 82 ədəd 20 tonluq konteyner daşıma qabiliyyətinə malikdir. İlk daşınan yük isə kaustik sodadan ibarət olmuşdur.

Bu qatarların əhəmiyyəti ondan ibarətdir ki, yüklərin daşınma müddəti Çindən Ələt limanına qədər cəmi 6 gün təşkil edir.

## YANVAR-İYUL AYLARINDA BTC İLƏ AZƏRBAYCAN NEFTİNİN AXIDILMASI 1% AZALIB

SOCAR şirkətindən bildirmişlər ki, Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə göndərilən Azərbaycan neftinin həcmi 2015-ci ilin yanvar-iyul aylarında 16 milyon 859,504 min ton olub ki, bu da 2014-cü ilin müvafiq dövrünün göstəriciləri ilə müqayisədə 1,4% azdır.

“Ümumilikdə boru kəməri istismara verildiyi vaxtdan 2015-ci ilin 1 avqustunadək 280 milyon 684,2 min ton, o cümlədən 2015-ci ilin iyul ayında 2 milyon 614,05 min ton neft nəql edilib”, – SOCAR-ın məlumatında bildirilir.

Bundan əlavə Bakı-Tbilisi-Ceyhan neft kəməri ilə iyul ayında 378,753 min ton Türkmənistan və Qazaxıstan nefti nəql olunub.

2015-ci ilin yanvar-iyul aylarında Ceyhan neft terminalından 16 milyon 991,794 min ton , o cümlədən iyul ayında 2 milyon 382,065 min ton Azərbaycan nefti göndərilib. Ümumilikdə isə Bakı-Tbilisi-Ceyhan işə salındığı vaxtdan Ceyhan terminalından 276 milyon 459,854 min ton Azərbaycan nefti yola salınıb.

2014-cü ildə BTC vasitəsilə 28 milyon 508,192 min ton Azərbaycan nefti nəql olunub.



## GÜRCÜSTAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİ ARASINDA TELEFON DANIŞIĞI OLUB

Gürcüstan prezidenti Qeorqi Marqvelaşvili və onun türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı olub.



Gürcüstan prezident administrasiyasının məlumatına görə, Marqvelaşvili və Ərdoğan Türkiyədə gedən prosesləri müzakirə etmişlər. Gürcüstan prezidenti son vaxtlar Türkiyədə baş verən terror aktları ilə bağlı narahatlığını və Türkiyənin mövqeyini müdafiə etdiyini ifadə etmişdir.

“Gürcüstan birmənalı şəkildə terrorizmin istənilən təzahürünü qınayır və müasir dövrümüz üçün ən böyük təhlükələrdən biri olan terrorizmə qarşı beynəlxalq birliklə bir yerdə mübarizəni davam etdirir”, – Marqvelaşvili bəyan etmişdir.

Türkiyə prezidenti tərəfdaşlığa görə təşəkkürünü bildirmiş və beynəlxalq sülhün və stabilliyin qorunması işində Gürcüstanın töhfəsini yüksək qiymətləndirmiş, Gürcüstanın Türkiyənin əsas tərəfdaşlarından biri olduğunu söyləmişdir.

Gürcüstan prezident administrasiyasının məlumatına görə, Türkiyə prezidenti Tbilisidə baş vermiş daşqından zərər çəkənlərə konkret layihələr çərçivəsində kömək etməyə hazır olduğunu bir daha bildirmişdir.

İki ölkənin liderləri ikitərəfli və regional əməkdaşlığın digər aktual məsələlərini də müzakirə etmişlər.

## GÜRCÜSTANIN BAŞ NAZİRİ TÜRKİYƏDƏ KEÇİRİLƏCƏK BİZNES-FORUMA DƏVƏT OLUNDU



Türkiyə xarici iqtisadi əlaqələr kollegiyası Gürcüstanın baş naziri İrakli Qaribaşvilini İstanbulda böyük şirkətlərin iştirakı ilə keçirilməsi planlaşdırılan biznes-foruma dəvət edib. Bu barədə Gürcüstanın baş naziri İrakli Qaribaşvili ilə Türkiyə xarici iqtisadi əlaqələr kollegiyasının müşahidə şurasının sədri Ömər Cihad Vardanın görüşündə bildirilib.

Gürcüstan hökumət administrasiyasından verilən məlumata görə, biznes-forumda Türkiyənin biznes sahəsinin aparıcı nümayəndələri iştirak edəcəklər.

Görüşün gedişində tərəflər Gürcüstan və Türkiyə arasında ticarət-iqtisadi əlaqələrin dərinləşdirilməsi prespektivlərini müzakirə etmişlər. Qeyd olunmuşdur ki, ölkələr arasında sıx partnyorluq əməkdaşlığı mövcuddur. Bununla belə cari regional layihələrin vacibliyi də vurğulanmışdır.

## AZƏRBAYCAN, TÜRKİYƏ VƏ GÜRCÜSTANIN XARİCİ İŞLƏR NAZİRLƏRİ NOYABRDA GÖRÜŞƏCƏKLƏR

Azərbaycan, Türkiyə və Gürcüstan xarici işlər nazirlərinin növbəti görüşü noyabr ayında Gürcüstanda olacaq. Bu barədə avqustun 7-də Gürcüstanın Azərbaycandakı səfiri Teymuraz Şaraşenidze məlumat verib. Danışıqlarda regional əməkdaşlıq məsələləri müzakirə olunacaq.

Azərbaycan, Türkiyə və Gürcüstan XİN-in başçılarının üçtərəfli görüşü ilk dəfə 8 iyun 2012-ci ildə Türkiyənin Trabzon şəhərində baş tutub. Ikinci görüş 2013-cü ilin 28 martında Gürcüstanda Batumi şəhərində, üçüncü görüş 2014-cü ilin fevralında Azərbaycanın Gəncə şəhərində, dördüncü görüş isə 2014-cü ilin dekabrında Türkiyənin Qars şəhərində gerçəkləşib.

Görüşün formatı üç ölkənin xarici siyasət idarələrinin Trabzon bəyannaməsi ilə müəyyənləşdiriləcək.



Afiq MUXTAROĞLU
amuxtaroglu@mail.ru

# AVQUST QIZMARINDA YAŞANANLARA BİR BAXIŞ

**Avqustun arxada buraxdığımız günləri canımızda tonqal qaladı deməyimi qəribliyə salmayın. Sözün hər mənasında yandıq-qaraldıq. Əli-ayağı tutan özünü üç günlük də olsa, beş günlük də olsa yaylaq havasına, bulaq suyunun sərinliyinə, dənizin qumlu sahillərinə yetirə bildi. Bacarana baş qurban deyiblər, halalları olsun. Hə, avqust qırxın üstündəki istiləri ilə bizi sınağa çəkdi. Amma yaman günün ömrü də az olan şeydir, dostlar. Qəm yeməyə də dəyməz, deyəsən, qorabişirən artıq yayın tarixinə qovuşub, quyruqdonanın sərinləri özünü bizə yetirib.**

Avqust gəldi-gəlmədi bizi yandırıcı hərarətindən daha çox yandıran dost itkisi ilə üz-üzə qoydu. Könül dostlarımızdan, ruh qardaşlarımızdan birini haqq dünyasına yolçu etdik. Musanı, can dostumuz Zərgər Musanı deyirəm, itirdik. Mən yüzdə yüz bilirəm ki, gözümüz-könlümüz hər yerdə onu axtaracaq. Di gəl, təəssüflə deyim ki, bu axtarışımız qiyamətəcən uzanacaq. Sadəcə biz onu bizlərə miras qoyub getdiyi bir-birindən gözəl əməllərində görüb, təsəlli tapacağıq. Bu əməllər isə saydıqca bitməz. Qəzetimizin bu sayında Zərgər Musa ilə bağlı müxtəlif səpgili materiallar verməyi daha uyğun gördük. Əlimizdən özgə nə gəlir ki?

Avqustun başlaması ilə ölkəmizin həyatında da bir hərəkətlilik, fəallıq özünü biruzə verməkdədir. Yuxarı eşalonda baş verən kadr dəyişikliklərini ictimaiyyətmiz birmənalı qarşılamadı. Ölkəmizin yeni daxili işlər naziri də təyin olundu. Və yeni nazirin cinayət mühitinə qarşı mübarizəni idarəsinin əsas məsələsi olaraq qalacağını elan etməsi, həyacanlı ürəklərə bir qədər su səpdi. Ölkədə parlament seçkilərinə qeyri-rəsmi start verilməsini də gündəmin əsas proseslərindən saymaq olar. İstər iqtidar düşərgəsində, istər də müxalifət cəbhəsində özünü cəmiyyətə təqdim etmək, bu və ya digər yolla özünü cəmiyyətə qəbul etdirmək istəkləri müşahidə olunmaqdadır. Seçicinin qəlbini ovlamaq, onun könlünü ələ almaq üçün müəyyən addımların atılması təbiidir. Amma unutmayaq ki, görünən dağa nə bələdçi? Seçicinin ölkənin taleyüklü məsələlərinin həll edilməsində qızıldan da qiymətli səsini yüz ölçüb, bir biçdikdən sonra ürəyi istədiyi tərəfə verəcəyini güman edirəm.

Avqust milli valyutamız olan larinin məzənnəsinə də özünəməxsus sığal çəkməkdədir. Larinin ucuzlaşması sadə vətəndaşlarımızın həyacanını bir az da artırmaqdadır. Avqustun başlaması ilə elektrik enerjisinin qiymətində baş verən yüksəliş də həyacanı artıran səbəblər sırasındadır. Elektrik enerjisinin qiymətinin təxminən 25% artması onsuz da sıxılmış olan kəmərlərimizi bir qədər də dartmamıza nədən olmayacaqmı? Əndişə doğuran xəbərlərdən biri də çörək məmulatlarının qiymətində ləng də olsa müşahidə edilən qiymət artımıdır. Aldığı çörək məmulatının bahalanması və ya həmin məmulatların çəkisinin azalması fonunda vətəndaşımızın durumunun o qədər də ürəkaçan olmadığını söyləməm çox güman ki, yersiz görünməyəcək. Nədən ki, biz qafqazlıların süfrəsində ən çox görünən çörəkdir. İnsanımızın çörəklə imtahana çəkilməsi yolverilməzdir. Dünya birjalarında az qala hər gün neftin qiymətinin azalmasının şahidi oluruq. Bunun bir çox siyasi-iqtisadi səbəblərdən qaynaqlandığını da bilməmiş deyilik.Yanacaq doldurma məntəqələrində qiymətlərin sabit qalması isə düşündürücü məqamlardandır. Əcaba, bu paradoks haradan qaynaqlanır sualını verməkdən özümü saxlaya bilmirəm.

**Superkubok oyunu – “Barselona”-“Sevilya” qarşılaşmasından dolayı idman ictimaiyyətinin coşqunluğu da avqustun ilk yarısının unudulmaz duyğularındandır. Kimi müasir futbolun canlı əfsanələrinin yer aldığı matçı izləmək üçün son qəpiyindən keçməyə belə hazırdır, kimi də əldə etdiyi bileti dəyərindən bir neçə qat artığına satmaqla ailəsinə beş-üç günlük çörəkpulu qazanmanın arzusu ilə alışıb, yanmaqdadır. Mən hər iki halda da insanımıza haqq qazandırıram. Birinci halda insanımız könlünün, ikinci halda isə bədəninin təbii aclığını doyurmaq niyyətindədir. Və bunların heç birində də insanımızı qınamağa, onu müzakirə mövzusuna çevirməyə kimsənin haqqı yoxdur. Axı, hərə öz gerçəyindən çıxış edir.**

## KÜR ÇAYININ EKOLOJİ VƏZİYYƏTİNİN YAXŞILAŞDIRILMASI ÜÇÜN SAZİŞ İMZALANACAQ



Azərbaycan və Gürcüstan arasında Kür çayının ekoloji vəziyyətinin yaxşılaşdırılması ilə bağlı saziş imzalanacaq.

Bunu Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ətraf Mühit üzrə Milli Monitorinq Departamentinin direktor müavini Mətanət Avazova deyib. O, bildirib ki, Azərbaycan Kür çayında ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində beynəlxalq səviyyədə xeyli işlər görüb.

Gürcüstan hökuməti ilə imzalanacaq sazişi qeyd edən direktor müavini hesab edir ki, sənədin imzalanmasından sonra Kür çayının ekoloji vəziyyətində xeyli irəliləyiş olacaq.

M.Avazova hesab edir ki, sazişdən sonra Kür çayının Gürcüstan hissəsində ekoloji durum xeyli yaxşılaşacaq: “Gürcüstanla Azərbaycan arasında Kür çayının su ehtiyatının idarə olunması üzrə saziş artıq iki ilə yaxındır müzakirə olunur. Diplomatik kanallarla və xarici işlər nazirlikləri səviyyəsində danışıqlar gedir. Müzakirələr bitdikdən sonra iki dövlət arasında saziş imzalanacaq. Bundan sonra qarşı tərəf bu istiqamətdə - suyun keyfiyyətinin yaxşılaşdırılması üçün istəsə də, istəməsə də üzərinə düşən məsuliyyəti həyata keçirməli olacaq. Düşünürəm ki, sazişin imzalanmasından sonra Kür çayında çirklənmənin qarşısını almaq mümkün olacaq”.

Nazirlik rəsmisi qeyd edib ki, 10 ildir ki, Azərbaycan Avropa Şurasının “Transsərhəd su axınları” adlı Avropa Konvensiyasına qoşulub və qurum 4 ildən bir suyun keyfiyyətinin qiymətləndirilməsi üçün hesabatlar hazırlayır.

Onun sözlərinə görə, beynəlxalq hesabatlarda Kür və Araz çaylarının güclü çirklənməyə məruz qaldığı qeyd olunur.

## DUSTAQ QADINLAR İSTİRAHƏT GÜNLƏRİ HƏBSXANANI TƏRK EDƏ BİLƏCƏKLƏR

Gürcüstanın yeni probasiya və cəzaçəkmə naziri Kaxa Kaxniaşvili bəyan edib ki, qadınlar üçün yeni cəzaçəkmə müəssisəsindən ötrü ərazi artıq müəyyənləşdirilib. Bununla bərabər o, qeyd edib ki, dustaqlar bu müəssisəni şənbə və bazar günlərində tərk edə biləcək, habelə istirahət günləri həbsxananı tərk edərk, ailələri və qohumları ilə görüşəcək, bazar ertəsi isə həbsxanaya qayıdacaqlar.

“Artıq qadın azadlığını məhdudlaşdıran müəssisələrlə bağlı prosesə başlanılıb. Müvafiq ərazi ayrılıb və hazırlıq işləri aparılır, qadınların azadlığını məhdudlaşdıran müəssisəni açmaq üçün biz yeni ilə qədər bünövrə qoymalıyıq. Bu isə o deməkdir ki, qadınlar orada şənbə və bazar, həmçinin istirahət günləri həbsxana ərazisini tərk etmək imkanı qazanacaq və bu günləri ailələri və yaxınları ilə keçirib, bazar ertəsi yenə də həbsxanaya qayıdacaqlar”, – Kaxa Kaxniaşvili bəyan edib.

## İRAN GÜRCÜSTAN VƏ ERMƏNİSTAN SUYU İLƏ URMİYA GÖLÜNÜ BƏRPA ETMƏYİ PLANLAŞDIRIR



İran Gürcüstandan və Ermənistandan alacağı su ilə qurumuş Urmiya gölünü bərpa etməyi planlaşdırır. İran deputatı Əli Əlilunun yerli mətbuata verdiyi açıqlamada bildirilir ki, tərəflər artıq razılaşma əldə ediblər.

Razılaşmaya əsasən Kür çayının və Sevan gölünün suyu üç nasos stansiyasının köməyi ilə Urmiyaya axıdılacaq. Stansiyaların üçü də İran ərazisində yerləşəcək. Deputatın sözlərinə görə, Xəzər dənizindən su götürmək suyun çirkli olmasından, həm də iqtisadi baxımdan baha başa gəldiyindən sərfəli deyil.

İranlı deputat qeyd edib: “Urmiya gölündə suyun səviyyəsi 36 milyard kub metrdən 2 milyard kub metrədək azalıb. Urmiyaya tökülən Araz və kiçik çaylar onu doldurmağa kifayət etmir. Biz hər iki ölkədən su alacağıq və ya barter yolu ilə dəyişəcəyik”.

Əlilunun sözlərinə görə, İrana saniyədə 60-80 kub metr su veriləcək və layihə iki ilə başa çatacaq.

“Əgər gölün quruma tendensiyası diqqətdən kənar qalsa tezliklə beş əyalət ciddi ekoloji böhranla, o cümlədən də insan böhranı ilə üzləşəcək” – iranlı deputat qeyd edib.

1976-cı ildə YUNESKO-nun biosfer qoruqlar siyahısına daxil edilmiş Urmiya gölünün bərpası ümumdünya ətraf mühitin mühafizəsi mütəxəssislərinin qayğısına çevrilib. Kosmosdan çəkilmiş şəkillər göstərir ki, 1972-ci ildən 2014-cü ilədək gölün cəmi 12%-i qalıb. Kənd təsərrüfatına vurduğu zərərdən əlavə, gölün duzlu külələri əhali arasında ciddi xəstəliklərin, o cümlədən də respirator xəstəliklərinin yayılmasına səbəb olur. Eyni zamanda Urmiya ətrafındakı ərazilərdə yaşayan, İran əhalisinin üçdə birini (?) təşkil edən etnik azərbaycanlılar üçün bu göl milli kimliyin simvollarındandır.

Bütün bunları nəzərə alaraq, gölün bərpası məsələsi hətta İran prezidenti Həsən Ruhaninin seçkiqabağı vədlərindən biri olub. Ruhaninin bəyan etdiyinə görə, bu problemin tənzimlənməsinə on il ərzində 5 milyard dollar xərcləməyə hazırdır.

# GÜRCÜSTANIN DÖVLƏT DİNİ MƏSƏLƏLƏR ÜZRƏ AGENTLİYİNİN SƏDRİ ZAZA VAŞAKMADZE: DÖVLƏTİN BÜTÜN DİNLƏRƏ MÜNASİBƏTİ EYNİDİR

*Bu günlərdə əməkdaşımız Gürcüstanın Dövlət Dini Məsələlər üzrə Agentliyinin sədri Zaza Vaşakmadze ilə görüşərək, ictimaiyyəti maraqlandıran məsələlər ətrafında söhbət edib. Həmin müsahibəni oxucularımızın diqqətinə çatdırırıq.*

*A. Ə.* - Öncəliklə müsahibə üçün təşəkkür edirik. İlk öncə bununla başlayaq, dini məsələlər üzrə dövlət agentliyinin əsas prioritetləri nələrdən ibarətdir?

Z. V. - Maraqlandığınız və gəldiyiniz üçün mən öz minnətdarlığımı bildirirəm, biz həmişə sizinlə əməkdaşlıq etməyə hazırıq. Çalışacam ki, bu sahədə əsas yer tutan bütün ictimai maraqları və istəkləri təmin edim, ümid edirəm bizim əməkdaşlığımız gələcəkdə də uğurla davam edəcək. Suala gəlincə, xatırladım ki, adı çəkilən agentlik əvvəllər fəaliyyət göstərmirdi. Bu, Gürcüstan müstəqillik qazandıqdan sonra ilk haldır və bütün bunlar indiki dövlətin, cənab baş nazir İrakli Qaribaşvilinin dini məsələlərə baxış bucağının göstəricisidir. Bu agentlik, onun fəaliyyəti və insanların dini maraqları Gürcüstan konstitusiyası və digər qanunlarla, həmçinin Gürcüstanın da qoşulduğu beynəlxalq müqavilələrlə qorunur. Son illərdə hökumətin rolu bu cür məsələlərdə çox uğurludur. Bunun göstəricisi olaraq, iki mühüm qərar qəbul olundu. Birincisi, dini işlər üzrə agentliyin yaradılması, ikincisi, Gürcüstanda olan faktiki dini icmalar üçün Sovet İttifaqi dönəmində vurulmuş ziyanın müəyyən hissəsinin təzminat şəklində ödənilməsidir. Bu məqsədlə hər il büdcədən müəyyən məbləğ ayrılır. Hökumətin qərarı ilə Gürcüstanda dörd əsas dini icma müəyyən edilib. Bunlar müsəlman, katolik, erməni ve yəhudi icmalarıdır. 2014-cü ildə dini məsələlər üzrə dövlət agentliyi yaradıldı və həmin il dövlət tərəfindən dörd icma üçün bir milyon 750 min lari pul ayrıldı və bu dörd icma ilə də müqavilə bağlandı. 2015-ci ildə bu icmalara ayrılan məbləğ iki qat artırıldı. Bu tendensiya gələcəkdə də davam edəcək, eyni zamanda bu icmalara yenilərinin əlavə olunması da planlaşdırılır.

A. Ə. - Ətraflı məlumat üçün sağ olun. Sizin bu cavabınızda mənim verəcəyim növbəti sualın cavabı da vard idi. İkinci sualım isə onunla bağlıdır ki, Gürcüstanda yaşayan dini azlıqların nümayəndələri ilə görüşləriniz hansı səviyyədə və nə sıxlıqda olur?

Z. M. - Demək olar mən onlarla hər gün görüşürəm. Sadaladığım 4 icmadan əlavə, digər dinlərin nümayəndələri ilə də görüşüm olur: yezidlərlə, protestantlarla və s. Onların problemləri ilə dövlət yerində məşğul olur. Bu maddi və ya başqa yöndən yardım ola bilər. Mənim sözlərimi icma nümayəndələri ilə görüşərək də, yoxlaya bilərsiniz. Xatırladım ki, Gürcüstan tarixən xristian, provaslov ölkəsidir və konstitusiyaya görə provaslav kilsəsinin rolu müəyyən olunub və dövlətlə müqavilə bağlanıb. Ancaq, bu o demək deyil ki, dövlət başqa dinləri kənarda qoyur. Dövlətin bütün dinlərə münasibəti eynidir. Məhz bu Gürcüstanda mövcud olan tolerantlığın nümayişidir.

A. Ə. - Cənab Zaza, dini təhsilin inkişafı ilə bağlı hansı tədbirlər həyata keçirilib və nələr planlaşdırılır?

Z. V. - Bu ümumi dini təhsilə aid olan məsələdir, əvvəlcə onu deyə bilərəm ki, hökumət konkret olaraq müsəlmanlarla bağlı, dini agentliyin də iştirakı ilə, 74 məscidi Gürcüstan miqyasında müsəlmanların istifadəsinə verib. Dövlət reystrində bunu təsdiq edən sənədlər mövcuddur. Bu il müsəlman icması üçün 2200000 lari ayrılıb. Bundan başqa Qərbi Gürcüstanda müsəlman icmasına dövlət tərəfindən mədrəsə kimi istifadə olunmaq və dini təhsil vermək üçün 4 mərtəbəli bina verildi. Bu dövlət lisenziyası olan və diplomu dövlət tərəfindən tanınan təhsil müəssisəsi olacaq. Eyni layihə Şərqi Gürcüstanda da planlaşdırılır.

A. Ə. - Batumi mövzusuna toxunmaq istəyirəm, bildiyimiz kimi, İvanişvili hakimiyyətdə olduğu zaman verilən vədlərdən biri Batumidə ikinci məscidin tikilməsi idi. Lakin, bu məsələ həll olunmadı, problem real olaraq yenə də göz önündədir, əhali küçədə ibadət etməyə məcbur olur. Sizcə, bu məsələ nə zaman tamamilə həllini tapacaq?



Z. V. - Bildirmək istəyirəm ki, bu mövzu bəzən çox aktual olur, bəzən isə yox. Rəsmi olaraq müsəlman icmasının liderləri ərizə ilə dövlətə müraciət ediblər. Onların birinci istəyi təhsil mərkəzinin açılması olub ki, gənclərin bu məqsədlə xaricə getməsinin qarşısı alınsın. İkinci tələb isə məscidin bərpa olunub, genişləndirilməsi məsələsidir. Eyni problem başqa dini icmaların qarşısında da durur . Bu problem sistemli şəkildə baş vermir. Əsasən bayram ərəfələrində bu vəziyyət meydana çıxır ki, bu hala kilsədə də, sinaqoqda da rast gəlmək mümkündür. Dövlət bu məsələ üzərində işləyir və yenidənqurma nəticəsində məscidə 500- 600 kvadrat metr əlavə olunacaq və düşünürəm ki, bununla da problem öz həllini tapacaq.

A. Ə. - Müsəlmanların yaşadıqları yerlərdə məscid tikilməsi üçün hansı standartlar mövcuddur və nə kimi sənədləşməyə ehtiyac var?

Z. V. - Nəzərinizə çatdırım ki, bu məsələ barədə Gürcüstan qanunvericiliyi hazırda işlənməkdədir. Statistikaya nəzər salsaq Gürcüstanda 300-ə yaxın məscid var. Yəni, Gürcüstanda ibadət problemi yoxdur və başqa dövlətlərdən fərqli olaraq heç kəs başqasına mane olmur.

A. Ə. - Son zamanlar Tbilisidəki cümə məscidində xütbələrin gürcücə həyata keçirildiyi ilə bağlı məlumat yayılıb, əgər nəzərə alsaq ki, oraya rayonlardan insanlar gəlir və onlar gürcü dilini bilmirlər, bu vəziyyətdə nə etməlidirlər. Bu barədə nə deyə bilərsiniz?

Z. V. - Yəqin ki, sizə yanlış məlumat veriblər, cümə günü bərabər gedək, görəcəksiniz ki, xütbələr təkcə gürcücə deyil, Azərbaycan və ərəb dillərində də olur. Bunu yerli dini idarələrdən soruşun, çünki bu onların haqqıdır. Dövlət hər bir məsələyə müdaxilə etmir. Onların daxili qanunları, daxili muxtariyyətləri var. Bildiyimə görə, əsas ibadət ərəb dilindədir, bunu da hər kəs – azərbaycanlı, türk, gürcü, iranlı başa düşür.

A. Ə. - Və sonuncu sualımız, radikalizmlə mübarizədə Gürcüstanda hansı tədbirlər həyata keçirilir?

Z. V. - Gürcüstanda həm hökumət, həm də müsəlman icması radikalizmə qarşı mübarizə aparır. Bu gün Yaxın Şərqdə sırf bu əsasda müharibələr baş verir. Allah Gürcüstanı belə şeylərdən qorusun. Gürcüstan hər zaman fərqlənir. Burada şiələr və sünnilər eyni məsciddə ibadət edir, bu, bəlkə də dünyada inanılmaz və yeganə faktdır. Mən dini məsələlər üzrə agentliyin rəhbəri olaraq, bununla fəxr edirəm. Bu, Gürcüstanın və Gürcüstan hökumətinin əməyidir.

Söhbətləşdi: A. ƏLİYEVA

## “იენი იოლ”ის თანამშრომლები რელიგიის საკითხთა სახელმწიფო სააგენტოს ხელმძღვანელს შეხვდნენ

გასულ კვირას, „ახალი გზის“ თანამშრომლები რელიგიის საკითხთა სახელმწიფო სააგენტოს ხელმძღვანელს, ბ. ნ ზაზა ვაშაყმაძეს შეხვდნენ. ახალი გზისთვის მიცემულ ინტერვიუში, სააგენტოს ხელმძღვანელმა ილაპარაკა რელიგიის საკითხთა სახელმწიფო სააგენტოს ძირითად პრიორიტეტებზე. მან შეაფასა რელიგიის საკითხთან, ასევე რელიგიის თავისუფლებასთან დაკავშირებული საქართველოში არსებული მდგომარეობა და სახელმწიფოს დამოკიდებულება. საუბარი შედგა, თბილისის ჯუმის მეჩეთში ქადაგებების ქართულად შესრულებაზე, ზაზა ვაშაყმაძემ განაცხადა, რომ ეს საკითხე ადგილობრივი მორწმუნეების გადასაწყვეტია. საუბარი შეეხო, ბათუმში დაგეგმილ მეორე მეჩეთს და უმაღლეს სასწავლებელს. ზ.ვაშაყმაძის სიტყვებით, დაგეგმილია მეორე სასწავლებლის აშენება აღმოსავლეთ საქართველოშიც. ზ. ვაშაყმაძის თანახმად საქართველოში ლოცვის კუთხით პრობლემა არ არსებობს. „საქართველოში არის 300–მდე მეჩეთი, ანუ საქართველოში ლოცვის პრობლემა არ არსებობს, არავინ არ უშლის ხელს არავის ლოცვაში სხვა გვეყნებისგან განსხვავებით.“ - განაცხადა ზაზა ვაშაყმაძემ. სააგენტოს ხელმძღვანელმა ხაზი გაუსვა საქართველოში ისტორიულად და დღეს არსებულ ტოლერანტობას.

## GÜRCÜSTAN RUSİYA DETALLARI OLMADAN SU TƏYYARƏLƏRİ YIĞMAĞA BAŞLAYIR



Tbilisi aviazavodunda Ge-31 “Bora” adlı qırıcı təyyarələr yığılacaq. Bu, Su təyyarələrinin Rusiyadan gətirilən hissələr olmadan modifikasiyasıdır.

Zavodun rəhbəri Nodar Beridze məlumat vermişdir ki, hərbi təyyarə Ge-31 adlanacaq. Bu müəssisə əvvələr Dimitrov adına 31-ci aviazavod adlanıb. Zavod SSRİ dövründə yaradılıb, hərbi təyyarələr və digər hərbi texnika istehsal edib.

SSRİ-nin dağılmasından sonra İsrailin köməyi ilə detallar Rusiyadan gətirilməklə təkmilləşdirilmiş Su-lar yığılırdı ki, bu da 2008-ci il müharibəsindən sonra mümkün olmadı.

Nodar Beridze məlumat vermişdir ki, yeni modelin gövdə və qanadları Gürcüstanda hazırlanacaq. Radioelektronika, naviqasiya, reaktiv mühərrik və katapulta isə Qərbdən alınacaq. Söhbət Fransa, İtaliya və Böyük Britaniyadan alınacaq detallardan gedir. Lazım gəldikdə bütün bunlar yerindəcə Su-nun standartlarına uyğunlaşdırılacaq.

Yeni təyyarə tamamilə NATO standartlarına uyğun olacaq. Ilk təyyarənin nə vaxt hazır olacağı barədə məlumat verilməyib.

Hazırda müəssisə Gürcüstan HSK sisteminə daxildir, burada artıq pilotsuz uçuş aparatları yığılır.

## 2017-Cİ İLİN SONUNDAN AVTOMOBİLLƏRİN TEXNİKİ BAXIŞI YENİDƏN QÜVVƏYƏ MİNƏCƏK

Bütün növ avtomobillərin məcburi texniki baxışdan keçirilməsi 2017-ci ilin sonundan qüvvəyə minəcək. Bu, Gürcüstan paytaxtında ekoloji vəziyyəti yaxşılaşdıracaq. Məcburi texniki baxışın tətbiq olunması “Yol hərəkəti haqqında” qanuna edilən dəyişiklikdə və Tbilisi meriyasının hazırladığı yeni təbiəti mühafizə strategiyasında nəzərdə tutulub.

Tbilisi üçün təbiəti mühafizə strategiyası beş illik dövr üçün hazırlanıb. ”Bu strategiyanın bir hissəsi də texniki baxışın bərpa olunmasıdır”, – şəhər ekologiya və yaşıllaşdırma xidmətinin rəhbəri Bidzina Qiorqobiani məlumat vermişdir.

Gürcüstanda məcburi texniki baxış Mixeil Saakaşvilinin prezidentliyi dövründə korrupsiya ilə mübarizə çərçivəsində ləğv edilmişdir. 2015-ci ilin fevralında parlament “Yol hərəkəti haqqında” qanunda dəyişiklik qəbul etdi. Bu dəyişiklik 2017-ci ilin 31 dekabrından bütün növ avtomobillərin məcburi texniki baxışını nəzərdə tutur. Bu tarixə qədər minik avtomobillərinin texniki baxışı könüllüdür.

Hazırda məcburi texniki baxış 3,5 tondan çox yük götürmə qabiliyyəti olan yük avtomobillərinə və 8 nəfərdən çox sərnişin daşıyan nəqliyyat vasitələrinə şamil edilir.

# BƏŞƏRİYYƏTİN BAŞ AĞRISINA ÇEVRİLMİŞ QİDA MƏHSULLARI

***Cari ilin iyulun 1-dən etibarən geni dəyişdirilmiş, yaxud genetik modifikasiya (GM) olunmuş qida məhsullarının etiketlənməsi barədə Gürcüstan qanunu artıq qüvvəyə minmişdir (qanun 11 dekabr, 2014-cü ildə Gürcüstan prezidenti G. Marqvelaşvili tərəfindən imzalanmışdır). Bildiyimiz kimi, Gürcüstanın bazar və dükanlarında bir çox ölkələrdə olduğu kimi, bu cür mallar az deyil. Maraqlıdır, bu istiqamətdə ölkəmizin ərzaq bazarlarında vəziyyət nə yerdədir, biz istehlakçıların hüquqları nə dərəcədə qorunur, ümumiyyətlə, qorunurmu? Bəlkə elə bu qanun da bir çox qanunlar kimi hələlik yalnız kağızı "bəzəyəcək"? Axı, qanunun artıq xeyli zamandır qüvvəyə minməsinə baxmayaraq, şəxsən mən hələ bir dənə də olsun etiketində "GM" yazısı olan qida məhsuluna rastlaşmamışam!***

Gürcüstan Milli Ərzaq Agentliyinin məlumatına görə, əgər hər hansı qida məhsulunun tərkibində genetik modifikasiya olunmuş komponentlərin ümumi çəkisi 0,9%-dan artıq olarsa, o zaman etiketin sol tərəfində, yuxarı küncdə "GM" işarəsinin mütləq olması vacibdir. Yenə bu qanuna görə, "GM" işarəsi istifadəçi üçün gözəçarpan və asanlıqla qavranılan olmalıdır. Etiketlənmə qaydalarının pozulması halında biznesoperator 5 000 lari məbləğində cərimələnir, qayda pozulması təkrarlandıqda isə cərimə iki qata yüksələrək – 10 000 lari olur. Əgər qida məhsulunun üzərində "GM" işarəsi olmazsa və laboratoriya yoxlanışı zamanı onun genetik modifikasiya olunması müəyyən edilərsə, həmin qida məhsulu müsadirə edilib-məhv edilməli, biznesoperator isə Milli Ərzaq Agentliyinin tələbi əsasında 10 000 lari məbləğində cərimələnməlidir.

Düşünürəm ki, möhtərəm Oxuculara GM qida məhsullarının insan orqanizminə, onun milli genofonda və ümumilikdə, gələcəyə vurduğu fəsadlar barəsində uzun-uzadı söhbət açmağa gərək yoxdur. Çünki bununla ilgili dünyanın bir çox aparıcı bilim adamları özlərinin olduqca sanballı araşdırmaları və təcrübələri ilə məsələyə kifayət qədər aydınlıq gətirmişlər. Sadəcə olaraq, yediyimiz pomidorun tərkibində balıq geninin, bananda isə qurbağa geninin olduğunu söyləsəm, yəqin ki, bəs edər. Planetimizdə əhalinin böyük sürətlə artımı və 3 milyraddan çox insanın aclıqla "savaşdığı" hazırkı dövrümüzdə GM qida məhsullarının vacibliyi və rolu danılmazdır. Bu sahədə XXI əsrdə insan beyninin bəşəriyyətə yetərincə zərbə və zərər vuran elmi icadlarından, bəşər övladının üzləşdiyi




ən böyük problemlərdən biri elə məhz GM-in icad olunmasıdır. Artıq bunu dərk edib, imkan daxilində, əsasən də gənc nəsli ekoloji cəhətdən təmiz qida məhsulları ilə qidalandırmağı unutmamalıyıq.

Təsadüfi deyildir ki, GM məhsullarının "müəllifi" ABŞ 90-cı illərdə humanitar yardım adı ilə bu cür bitki və toxumları Gürcüstana və digər postsovet ölkələrinə daxil edib. Bu gün də ABŞ və digər dövlətlər GM qida məhsullarının çox yüksək səviyyədə reklamını aparırlar. Bnun sayəsində "bir daşla iki quşu eyni anda vurmuş" olurlar. Bir tərəfdən başqa-başqa ölkələrin bazarlarını belə məhsullarla təmin edərək zəbt edib, milyardlarla dollar vəsait əldə edir, digər tərəfdən isə istədikləri toplumları istədikləri havaya "kökləyib" "dingildədə" bilmələri üçün kökünə, adət-ənənəsinə bağlı millətlərin genefonduna müdaxilə edir və öz rahatlığından başqa bütün milli dəyərlərə biganə münasibət bəsləyən robot toplumun yaranmasına zəmin yaradırlar. Kökünə, adət-ənənəsinə yan baxan toplumun isə gələcəyinin "aydınlığına" və "qeyrətinə" söz ola bilməz! Sözün əsl mənasında "pambıqla baş kəsmək" də elə buna deyərlər də... Nə isə... "elnən gələn toy-bayramdır"deyib də, bu məsələyə biganə qalmağın doğru olmadığı qənaətindəyəm. Ən azı övladlarımızı hansı tərkibli qida məhsulu ilə bəsləməmizin fərqində olmalıyıq ki, gələcək nəslimizin damarlarında öz əcdadlarımızın qanı axsın, soyumuz tükənməsin!

Cambul MƏMMƏDLİ

# SÖZ AZADLIĞI İŞIĞINDA BAŞ VERƏNLƏR



Günümüzün geniş yayılmş  mövzularından biri də söz azadlığıdır.

Mənim bildiyim və gördüyüm qədər əvvəllər nəsr əsərlərini yazıçılar, şeirləri isə şairlər yazırdı. Yazanların təxmini hamısı da dərin biliklərə sahib olan insanlar idi.Yazını oxuyanda insan özündən asılı olmayaraq düşünməyə başlayırdı, dərs alırdı, yazıda özünü görürdü. Cümlələrdə məna vardı, yalnız sözlərdən ibarət abzas deyildi.

Birdən ortaya yeni insanlar çıxdı. Onların isə öz şüarları var idi: "Yazın!!! Yazmaq üçün heç də istedada malik olmaq, bilikli olmaq lazım deyil, istədiyiniz kimi yazın. Yazılarınızda insanları vurun, yıxın, sürüyün..."

Şuar qulağımıza xoş gəldi, qələmi tutan da, tutmayan da, bacaran da, bacarmayan da başladı yazıb tənqid etməyə.

Bunu da başa düşmək olardı, zaman keçdikcə anlayardıq ki, bizdə yazmaq alınmır, çünki kimimizin yazmaq bacarığımız yoxdur, kimimizin söz bazamız azdır, əl çəkərdik. Amma bir də söz azadlığı çıxdı ortaya. Təbii ki, hər zaman vardı, amma bu dəfə bir başqa məna daşıyırdı. Sən demə yazmaq üçün ədəbi sözlərə ehtiyac yox imiş, elə jarqonla, söyüşlə yazmaq da olarmış. Bu da lap yaxşı, belə yazmağa nə var. Hamımız olduq yazar.

Hərə öz şəxsiyyətini göstərəcək yazılar yazmağa, insanlarda nöqsan axtarmağa başladı. " Ora bax e, filankəs nə dedi... Dayan bu saat mən onun haqqında yazacam, yıxıb sürüyəcəm e, onu", "Filan müəllim həftə sonu bazarda göy satırmış, beləsindən yazıb, rəzil etmək lazımdır", " Filan müəllim məsciddə namaz qılırmış, bu ki ana söyüşünə bərabər olan bir hərəkətdir, biabır edecəm e, yazımda onu" və s.

İnanın insanın ağlına gələ biləcək, hətta gələ bilməyəcək mövzularda yazılar yazırıq, dayandıranımız yoxdur. Haqlarını yeməyək aramızda bir neçə qələmi tutan da vardı. Yaxşı yazırdılar, amma əfsus ki, onlar da başqalarının təsiri altına düşdülər.

Hər həftə biz ağıllı gənclər yığışıb, yazılarımızı oxuyub, fikirlərimizi bölüşürdük.

Deməli, nəsrdə də, şeirdə də, yazıda da biz kəndçilər demişkən, söyüşün biri beş qəpik. Daha yazılar söyüşlərlə, jarqonlarla dəyər qazanmağa başladı. Ağlımıza gələni cızma-qara edirdik. Bir vaxt tabu qoyulmuş bütün sözləri bu yzılarda görmək olardı.

Bu bir tərəfə qalsın o gədər irəli getdik ki, bizi böyüdən, bizə əmək qoyan müəllimlərimizə, ustadlarımıza dil uzadıb, tənqid də etdik.

Hər şeyin sonu olduğu kimi, bu yığıncaqların da sonu oldu, çünki aramızda məni kimi adət-ənənələrinə sadiq olan, on yeddinci əsrdən qalan, yeniliklərə açıq olmayan bir neçə nəfər də vardı.Biz bu cür yazıları qəbul etməyib onlardan ayrıldıq.

Əslində onları da qınamaq olmaz, qələmi tutanlarımız hələ özlərində , öz fikirlərində formalaşmayıblar, həyatın bərkinə, boşuna düşməyiblər. Qalanları isə həyatları boyu iki kitab oxumayıblar. Tələb edirlər ki yaz.  Axı yazıq bilmir nə yazsın, nədən yazsın.

Hər kəs öz yolunu seçdi, geridə qalan "mənasız adətlərlə" yaşayan biz nə edək deyə düşündük.Əslində istəyimiz, niyyətimiz bir idi, amma getdiyimiz yollar çox fərqli idi.Yaxın bildiklərimizə deməyə çalışdıq ki, belə olmaz, söyüşlə bir şey əldə etmək olmaz. Olmadı, bacarmadıq.

Qanadımız olmadan uçmağa çalışdıq, amma dərk edə bilmədik ki, nə qədər yuxarı qalxmağa çalışsaq, enişimiz bir o qədər sərt olacaq. Hər kəs kimi biz də öz yolumuzu seçdik. Kimlər üçünsə adətlərinə sadiq olan ağılsızlar, kimilər üçünsə tərifə layiq olanlar kimi. Heç kəs bilmir kimin getdiyi yol daha düzgündür. Amma mən ümidvaram ki, bir gün kimsə gəlib bizi də silkələyib qəflət yuxusundan oyadacaq, nəyin doğru, nəyin səhv olduğunu bizə başa salacaq.

Nübar BAYRAM

## GÜRCÜSTANIN MİLLİ AZLIQLARI GÜRCÜ DİLİNİ ÖYRƏNİRLƏR

Müəllimlərin peşəkar inkişafı mərkəzinin "Gələcək uğurlar üçün gürcü dili" proqramı çərçivəsində Gürcüstan milli azlıqların nümayəndələrinin ikinci dəstəsi Keçxobidəki yay düşərgəsindədir. Hazırda düşərgədə 75 etnik azərbaycanlı və erməni var.

Yay düşərgəsinin iştirakçıları gürcü dilinin öyrənilməsi ilə yanaşı, vətəndaşlıq düşüncəsini inkişaf etdirir, multikultural məsələlərlə tanış olurlar. Bundan başqa təhsil proqramına rəsm, tətbiqi incəsənət, mahnı, rəqs, rabitə vərdişləri və idman da daxildir. "Gələcək uğurlar üçün gürcü dili" proqramının hər il yay düşərgəsi fəaliyyət göstərir. Bu yay düşərgə iki qrup şagird qəbul edib.

Proqramın rəhbərləri belə bəyan ediblər ki, düşərgədə keçirilən vaxt, müxtəlif etnik qrupların yaxınlaşmasına və sosial inteqrasiya prosesinə xüsusilə kömək edir.

## ALTI AY ƏRZİNDƏ GÜRCÜSTANA 600 MİN AZƏRBAYCAN VƏTƏNDAŞI GƏLİB

2015-ci ilin birinci yarımilində Gürcüstana 600 min Azərbaycan vətəndaşı gəlib. Bu barədə Gürcüstanın Azərbaycandakı səfiri Teymuraz Şaraşenidze məlumat verib.

T. Şaraşenidze demişdir: "Gürcüstana gələnlərin sayına görə azərbaycanlılar birinci yeri tutur. Bu ilin ilk altı ayı ərzində Gürcüstana 600 min azərbaycanlı gəlib".

O, həmçinin PKK silahlılarına qarşı qonşu Türkiyədə həyata keçirilən antiterror əməliyyatlarının Gürcüstan ərazisində turistlərin təhlükəsizliyinin təmin olunmasına təsiri məsələsinə də toxunmuşdur. Onun sözlərinə görə, bu məsələ "Türkiyə hökuməti ilə əlaqədə" tənzimlənir. Gürcüstan DİN öz vətəndaşlarına PKK üzvləri ilə Türkiyə hökumət qoşunları arasında toqquşmaların baş verdiyi Türkiyənin cənub-şərq ərazilərinə getməyin arzuolunmazlığı barədə xəbərdar edib.

## İŞİD-LƏ MÜBARİZƏDƏ TÜRKİYƏNİN YERİ

Son illər Yaxın Şərq dünyanın ən qaynar nöqtəsinə çevrilmişdir desək səhv etməmiş olarıq . 2011-ci ildə Suriyada başlayan vətəndaş müharibəsi öz axarını sonradan başqa məcrada davam edən hadisələrə ötürdü. Qərbin də dəsdəklədiyi Suriya müxalif qüvvələri Bəşər Əsəd rejimini devirə bilmədikdən sonra bu işin qulpundan daha böyük iddiaları olan yeni bir qüvvə yapşdı. Bütün islam dünyasını bir dövlətin sərhədləri daxilində birləşdirəcəklərini qarşılarına məqsəd qoyan İŞİD (İraq-Şam İslam Dövləti) adlı bir qurum yarandı. Hal-hazırda həm Suriya, həm də İraq torpaqlarının bir qisimini – təxminən 60 min kvadrat km. ərazini nəzarət altına alan İŞİD region dövlətləri üçün təhlükə mənbəyinə çevrilmişdir.



Müxtəlif hərbi döyüş üsulları ilə yanaşı həm də terror, adamqaçırma və sair bu kimi metodlar vasitəsi ilə istəklərinə nail olmağa çalışan bu təşkilatla mübarizədə işləri çətinləşdirən ən mühüm məsələ dünyanın ayrı-ayrı ölkələrindən yüksək döyüş qabiliyyətli muzdlu döyüşçülərin İŞİD sıralarına qatılmasıdır. Əsasən Əfqanıstan, Liviya, Nigeriya, Qafqaz bölgəsində baş vermiş müharibələrdə peşəkar döyüş təcrübəsi əldə etmiş bu muzdluların sayının təxminən 200 min nəfər olduğu güman edilir. Qəribədir ki, hal hazırda İŞİD-in sıralarına Böyük Britaniya, Rusiya və Fransadan qatılanların sayı minlərlə ölçülür. Hələ İŞİD-lə mübarizəyə başlarkən ABŞ bölgəyə əsgər göndərməyəcəyini, lakin hava zərbələri endirməklə İraq hökümətinə dəstək olacağını və mübarizədə uğur əldə etmək üçün “Birləşmiş Koalisiyanın” yaradılmasının vacibliyi haqqinda açıqlama vermişdir. 14 oktyabr 2014-cü ildə aralarında Türkiyənin də təmsil olunduğu bu koalisiyanın 21 dövlətin yüksək çinli hərbi nümayəndələri ilə görüşü zamanı ABŞ prezidenti Barak Obama İŞİD-lə mübarizəni “uzun müddətli kompaniya” adlandırmış və onun 10 ilə qədər bir vaxt aparacağını vurğulamışdır.

Şübhəsiz ki, Ankara bu müharibəyə fəal surətdə qoşulub, qoşulmamaq barəsində uzun sürə düşünüb-daşındıqdan sonra, nəhayət keçən ayın 24-də Türkiyə hərbi hava qüvvələri İŞİD-in mövqelərinə zərbələr endirdi. Hava zərbələrindən 3 gün əvvəl Türkiyənin Şanlıurfa əyalətinin Suruç qəsəbəsində yuxarıda adı gedən təşkilatın üzvi tərəfindən törədilmiş terror aktı zamanı 32 nəfərin həlak olması Ankaranın bu addımını bir az da tezləşdirdi. Həmçinin, son zamanlar Suriya və İraqın şimalında PKK-ın fəallaşması və Türkiyə ərazisində iğtişaşlar törətməsi də türk hökümətini qəti qərar verməyə məcbur etdi. Digər tərəfdən, İŞİD-in Suriyanın şimalındakı Kobani uğrunda döyüşləri zamanı atılan mərmilərin dəfələrlə Türkiyə ərazisinə düşməsi şübhəsiz ki, qardaş ölkəni narahat etməyə bilməzdi. Cavab olaraq Ankara Suriya və İraqın sərhədlərinin içərilərinə doğru 140 kilometrlik bir ərazidə təhlükəsizlik zolağı yaratmaq təklifini irəli sürdü. Lakin, Qərbin bu təklifə cavabı bir qədər “maraqlı” və müəmmalı oldu: hava zərbələri yalnız İŞİD mövqelərinə vurulmalı, PKK-nın mövqeləri isə zərər görməməlidir. Əsas da bu hesb edilir ki, PKK da İŞİD-ə qarşıdır. Belə çıxır ki, terror təşkilatının biri yaxşı, o birisi isə pisdir. Axı, Qərb də PKK-nı terror qurumu kimi tanıyır. Türkiyənin İŞİD mövqeylərinə hava zərbələri endirməsindən və artıq bu terror təşkilatı ilə bilavasitə mübarizəyə başlamasından sonra, Ankaranı narahat edən ən başlıca məsələ dövlətin daxilində sabitliyin pozulması və baş verə biləcək terror aktlarıdır. Digər tərəfdən, hər il on milyonlarla turist qəbul edən qonşu ölkə bu sektorda düşüşün yaşanmamasında maraqlıdır.

Görünən odur ki, yaxın bir neçə müddət ərzində Türkiyə Yaxın Şərqdə cərəyan edən qaynar hadisələrin mərkəzində olacaq. Türkiyə rəsmilərinin üzərinə düşən ən böyük məsulyyət onların atacaqları addımların Türkiyə dövlətçiliyənə zərər gətirməməsinə çalışmaq və Atatürkün yadigarını gələcək nəsillərə əmin-əmanlıq şəraitində təhvil verməkdir.

Sahib MUSTAFA

## GÜRCÜSTANDA ARTIQ ÇÖRƏYİN BAHALAŞMASI PROSESİ BAŞLAYIB

Gürcüstan çörək məmulatları istehsalçıları assosiyasiyasının sədri Malxaz Dolidze ölkədə çörəyin qiymətinin bahalaşmasının gözlənildiyini vurğulamışdır.

Bu barədə avqustun 6-da KİV-də məlumat yayılıb.

Malxaz Dolidze bəyan etmişdir ki, artıq Gürcüstanda çörəyin bahalaşması simptomları müşahidə edilməkdədir. Çörəkxanaların bir hissəsi satışa çıxardığı məhsulların qiymətini artıq qaldırıb. Qiymətləri qaldırmayanlar isə çörəyin çəkisini azaldıb.

Onun sözlərinə görə, çörəyin qiymət artımının mümkün səbəblərindən biri unun qiymətinin hiss olunacaq dərəcədə bahalaşmasıdır. Dolidze bəyan edib ki, bu il buğdanın çox olmasına baxmayaraq, unun qiyməti bahalanıb. Xatırladaq ki, unun



qiyməti 37 laridən 44 lariyə yüksəlib.

Gürcüstan çörək məmulatları assosiyasiyasının sədri çörəyin qiymətinin kütləvi şəkildə nə vaxt və nə qədər artacağı haqda məlumat verməkdə çətinlik çəksə də, artıq bazarda bu prosesin başlandığını bəyan edib.

Afayət AFİQ



## BOŞ-BOŞ İŞLƏR

**Sənətkar dünyanın ən çox tanınan insanıdır. Bu ad altında çox insan daldalanır. Layiq olanı da, olmayanı da. İmkanım olsa, hər kəsdən – önümə çıxan hər kəsdən xəbər alardım, hər insanı dindirərdim bu mövzuda – sizcə, sənətkar kimdir? Nə yazıq ki, çoxları kimdir yox, sənətkar nədir deyə düşünür. Yanlış anlaşılmasın, mən nəyəsə tərif vermək, ya da kiməsə sənətkarın kimliyi haqqında ağıl öyrətmək niyyətində deyiləm. Hətta düzünə qalsa, bu fikirdən bir dünya uzağam. Bu barədə, hər kəs azdan-çoxdan məlumata sahibdir. O da ola indiki dövrün adamı. Yein altını da bilir, üstünü də.**

Mənim narahat olduğum məqam, sənətə və sənətkara olan hazırkı münasibətlərdir.Yazının əvvəlində xəyalında olduğum sorğunu da məhz bu münasibətə aydınlıq gətirmək üçün istəyirəm. Bizim gözümüzdə kimdir sənətkar? Bu geniş qavramdır və sənət birmənalı anlaşılmamalıdır. Qarışıqlıq olmasın deyə konkret danışım. Ümid edirəm ki, daha məqsədəuyğun olar, ədəbiyyat insanları, mən onlara ədəbiyyatçı demirəm, çünki bu "çı" təkcə isimdən isim düzəltmir, eyni zamanda prosesi mexanikiləşdirir. Yazarlar və şairlər ( söhbət bu adları yazar və şair olduqları üçün alanlardan gedir) mənim dünyamda ədəbiyyat adamlarıdır. Yazırlar və yaradırlar. Sənətkardırlar. Dünyaya ayna tutandırlar. Öz həyatları ilə yanaşı, minlərlə həyatı göz önünə sərəndirlər. Deyə bilərsiniz yaxşı, burada narahat olmalı nə var?

Narahat olmalı o var ki, bu insanların imici bütün zamanlarda, bütün insanlar tərəfindən tapdalanıb. Harada bir eybəcərlik varsa şair adlananın, yazıçı adlananın belinə yazılıb. Qeyd etdiyim məqamda sənətkarlarımın da günahı az deyil, hətta deyə bilərik ki, çox şeyə özləri səbəb olublar. Bəzən istəyərəkdən, bəzən istəmədən. Uzun keşmişdən üzü bu yana şairin, yazarın iki sifəti olub, insanlar onları iki cür tanıyıb: ya səfil, xəstə, əyyaş, müflis kimi, ya da zəngin qapılarında, süfrə artıqları ilə qarın doyduran, par- par parıldayan iki qəpik etməz insan kimi. Amma, sonradan o səfillərin dəyəri bilinib və bütün dünya yekdilliklə onları böyük elan edib, əsərləri əldən ələ, dildən dilə dolaşaraq dünyanı fəth edib. Sağlığında dəyərləndirilməyən bu sənətkarların hesabına cibini dolduranlar, var-dövlət sahibi olanlar da yox deyil. Dərdin böyüyü odur ki, vəziyyət indi də belədir, elə bil heç yüzilliklər ötüb keçməyib. Sənətkara münasibətdə zaman elə bil donub, yerində sayır. Yazar ya elə olmalıdır, ya belə. Ortası yoxdur.

Yazara insanlar ironiya ilə yanaşmalı, aldığı nəfəsə qədər satın olanlar yazara, şairə boş-boş işlərlə məşğul olursan deməlidir. Sözüm onda deyil, hər canlı zərin, xurmanın nə olduğunu, dəyərini bilməlidir deyə bir qanun da yoxdur axı?

Sözümün canı odur ki, indi müdafiəsinə qalxdığım insanlar özləri bu durumdan məmnunluq duyurlar. Mazaxizm adlandırmaqdan başqa yolum qalmır, bəli, onlar dərddən zövq alırlar, səfalətləri ilə fəxr edirlər. Bir qismi, keçmişlər kimi sonradan əbədi dəyərə minməyi gözləyir. Gözümçıxdıya düşməkdən rahatsız olmur. Biz isə sevmirik, cah-cəlallı toyları buraxıb, sənəti yaşatmaq ağlımıza da gəlmir. İçi mən qarışıq belə şeyi dilə gətirənə də əlüstü bəddua yollayırıq, şəhadət barmağımızı gicgahımıza dayayıb onun başında nəsə çatmadığını xatırladırıq və az qala demək istəyirik ki, balam, ölsən öldüyün yerdə. Kimimiz siyasətimizin, kimimiz alverimizin arxasındayıq.

**Gələn yazılarda sizə vicdan üstü və vicdan altı alverlərdən danışacam ( bu nə sayaqlayır da deyə bilərsiniz,lakin xətrim üçün bunu demədən gələn sayımızı gözləyin). Bəli, biz çox şeylə məşğul olmağa vaxt tapırıq, sənətə isə lap başda oturanlarımızdan tutmuş, yerdə eşələnənlərimizə qədər yalnız kef tutmaq üçün, lağ hədəfinə çevirmək üçün vaxt ayırırıq. Biz həqiqətlərin ağzına daş basmaqda ustayıq. Filankəsin şərəfsiz olduğunu bilə-bilə, filankəsə şair deyə bilirik. Savadsız olduğunu bilə-bilə savadlı, Allahsız olduğunu bilə-bilə Allahlı adlandıra bilirik. Hansısa zülmü pərdələmək üçün, bir tikə yağlı tikənin yavan çörəyə çevrilməsindən qorxduğumuz üçün, istənilən insanı qaralaya, ləkələyə bilirik. Eh, bizdəki potensial ölçüyə, hesaba sığmaz ki... Mən də durub sənətkara olan laqeydlikdən, mənfi münasibətdən yazıram. İşim-gücüm yoxdurmu?! Eybi yoxdur, "biz " bunu da əridib süzərik...**

# NÜMAYİŞƏ CEVRİLƏN CƏNAZƏ MƏRASİMLƏRİMIZ

***Cəmiyyət olaraq dünyaya olan düşkünlüyümüzün, ehtirasımızın, eqoizmimizin, döyüş və çəkişmələrimizin, ölülərimizi gözlərdən xeyli uzaq, müasir qəbiristanlıqlara dəfn etməyə başladıqdan sonra artması təsadüfi deyil. Bəzi dindarlarımız tərəfindən ölümü xatırladan vəəz və hədislərin söylənməsi, guya insanların psixologiyasını pozurmuş kimi bəhanələrlə bağlı şikayətlər hər gün daha da artır. Bu vaxt ölümü xatırlamağa və ölümdən ibrət almağa vəsilə olan müsəlmana məxsus üsulların yerinə müasir xurafat və bidətlər qoyularaq, ölüm tamamən unudulur.***

Görünən odur ki, Hz. Peyğəmbərin (s.ə.s.) xüsusilə cənazələrimizin yuyulması, hazırlanması və dəfni xüsusunda müsəlman olmayanlara bənzəməmək üçün etdiyi xəbərdarlıqları tamamən unutmuşuq. Həm ölənə hörmətin, həm ölüm üzərində təfəkkür edə bilmənin şərti olduğu üçün sükunət, təmkin və sadəlik içində icra edilməsi lazım olan cənazə mərasimlərimizin, zaman-zaman gurultulu şoulara çevrildiyini görürük. Üləmamızın, təfəkkürə maneə törədəcəyi üçün çox yüksək səslə təkbir gətirməyi, yüksək səslə Quran və dua oxumağı belə xoş qarşılanmadığı cənazələrdə, qışqırabağıra atılan şüarlara, alqışlara şahid oluruq. İslamda heç yeri olmadığı halda yas tutacağam deyə qaralara bürünənlər, qəza və ya fəlakətlərin ildönümlərində ölənləri xatırlamaq adına hörmət duruşu, şam yandırmaq, siqnal çalmaq kimi, müxtəlif paltar və hərəkətlərlə vizual mesajlar vermək kimi qəribə mərasimlər icra edənlər var. Ağrıların təzə olduğu zamanlarda sərgilənən belə səhvlərə, nəzakət göstərərək müdaxilə edilmədiyi üçün, doğruymuş kimi qəbul edənlər də təəssüf ki, çoxalır. Bu cür davrananların səmimiyyətini sorğulama haqqına sahib olmasaq da, bu davranışların bir cəhalətin, təhlükəli bir əsintinin təzahürü olduğunu söyləmək məcburiyyətindəyik. Əqidəni zədələyən, ölçülərimizi unutduran, müsəlmanın həyat tərzinə mane olan, son dərəcə təhlükəli bir cəhalətdən danışırıq. Mən cəhalət dediyim üçün bəlkə də çoxlarınız mənə ya güləcək, ya da dəli deyəcəksiniz. Çünki bu hərəkətləri o qədər özümüzünküləşdirmişik ki, bunların bidət olduğunu qəbullana bilmirik. Ancaq gəlin bir də bu günkü yas mərasimlərimizə diqqət yetirək. İslama görə üç gündən artıq yas tutulmaz. Və cənazə sahibi qəmli olduğu üçün evində yemək bişməz. Qonşular, qohumlar hazırlayıb gətirərlər ki, acısı var. Bir də bizim mərasimlərə baxaq. Sanki bu adamın ölümünə sevinirikmiş kimi süfrə hazırlayır, mal-heyvan kəsib camaatı qonaqlayırıq. Üç, yeddi, qırx verir, toy süfrəsindən heç də geri qalmayan süfrə açırıq. Hələ imkansız biri bu süfrəni sadə edəndə ona dastan da yazırıq ki, ölüsünü "urvatlı" yola salmadı. Cənazəmiz qalır bir yanda, ətlik mal tələşına düşürük. Bir də üstəgəl məzar daşlarımız. Qəbirsanlığa girəndə muzey havası verir. Başdaşı ucaltmaq üçün də başqa bir yarış içərisindəyik. O daşın ərsəyə gəlməsindəki borclardan söz belə açmaq istəmirəm. Halbuki, ölüm bizə özümüzə çəki-düzən verib, həyatımızı nizama salaq deyə ibrət verməlidir.

Bizə ölüm həqiqətini xatırlatması lazım olan cənazə



və anım mərasimləri, ölümü unutduran, yox saydıran bir mahiyyət qazanıb. Öləni də, ölümü də pərdələyən daşqınlar, çox vaxt ya bəzilərinə görünmə səyini, yaxud görməzlikdən gəlinən bir həqiqətlə üzləşmənin dəhşətini əks etdirir.

Müsəlman üçün dünya axirətin tarlasıdır. Müsəlman, Allahın bizi qulluğumuzdakı sədaqət və səmimiyyətlə sınamaq üzrə yaratdığını bilər. Səbirlə, şükrlə gözəl əməllər yığıb əbədi yurduna dönmənin hazırlığında olar. Tabe tutulduğu imtahandan üz ağlığı ilə çıxması, Rəbbinin qarşısına əli boş getməməsi üçün dünya həyatını ölümə və ölümdən sonrasına görə tənzimləyər. Gözü axirətə açılan qapıda, qulağı Dostun "gəl" dəvətində olar. Belə həyat bir müsəlman tərəfindən ancaq ölümü unutmamaq şərti ilə yaşana bilər. Bu səbəblə Əfəndimiz (s.ə.s) "Ölümü çox xatırlayın!" buyurmuşdur. Böyüklərimiz isə, ölümü çox xatırlayaq deyə az qala insanların gəlib keçdiyi hər yerə məscidlər tikmiş, məzarlıqlar salmışlar. Buna görə təsəvvüf tərbiyəsinə girənlərə böyüklərimiz, adamın öz ölümünü düşünüb xəyal etməsi mənasını verən "rabiteyi mevt" yaxud "təfəkkürü mevt"i məsləhət görmüşlər. Lakin son zamanlarda baş verən ölümlər qarşısında sərgilənən və getdikcə yayılan davranışlara baxdıqda ölümü çox xatırlamaq bir yana, əksinə çox unutduğumuzu, xatırlamaq istəmədiyimizi görürük. Ölüm bəzən bir yaxınımızın vəfatı, bəzən təbii fəlakət və ya qəzalarla meydana gələn və günlərlə xəbərlər mövzusu olan toplu ölümlərlə bizə özünü xatırlatdığında gözlərimizi yumuruq. Həyatdan daha gerçək olan bu həqiqəti bir şəkildə görməməzlikdən gəlməyin yollarını axtarırıq.

Müsəlman, ölüm qarşısındakı rəftarını ölümlə əlaqəli hər sahəyə əks etdirər. Ölmüşlərini xeyirlə xatırlayar. Yəni onların qüsur və günahlarını danışmaqdan qaçınar, haqqlarında rəhmət və bağışlama niyazında olar. Axirətə köçənlərə ancaq duaların, fatihələrin, başqalarının dualarına vəsilə olacaq xeyir işlərin fayda verəcəyinə inandığından tərif, söyüş və ya nümayiş məqsədli cahilcə mərasimlərdən çəkinər. Ölənlərin yaxınlarına səbir və sükunət təlqin edər. Onların ağrılarını, yaralarını qaşımaqla deyil, şəfqətlə, mərhəmətlə, söhbətlə paylaşar.

Müsəlman, bu dünyada həyata gözlərini yummaqdan çox ölümə gözlərini yummaqdan qorxar. Çünki ölümə gözlərimizi yummaq, ölümü unutmaq ya da görməzlikdən gəlməkdir. Bu korluq da ən çox qorxulması lazım olan böyük bir fəlakətə, mənəviyyatın ölümünə səbəb olar.

Laqeydlikdən, dünyalıq ehtirasdan, məsuliyyətsizlikdən qaynaqlanan ölümlərə göz yummayaq, tədbirli olaq, ancaq bəhanələr çıxararaq şəxsən ölümə də gözlərimizi yummayaq.

# STAND UP TEATRIN ƏN QƏDIM NÖVLƏRINDƏN BIRI KİMİ




"Stand up" - bu sözün mənasını anlamaq üçün ingilis dilini elementar səviyyədə bilmək yetərlidir. "Stand up" sözünün əsas mənası ayağa qalxmaq deməkdir. Amma bu sadəcə belə deyil. Stand-up eyni zamanda teatrın çox qədim növlərindən biridir. Üstəlik, Amerikada, Avropada, hətta bir çox Asiya ölkələrində bu sənət növü geniş yayılmışdır. Sırf bu işlə məşğul olan və bu işdən xəyal edilməyəcək qədər pul qazanan, milyonlarca tamaşaçını öz cazibə dairəsində saxlayan bir çox məhşur stand-up sənətçisi var həmin coğrafiyalarda. Amma bizdə kiməsə stand-up desən, ingilis dilini bilən biridirsə, uzağı ayağa qalxacaq. Düzdür, son illərdə Türkiyədən Cem Yılmazı izləyən gənclərimiz də kifayət qədərdir. Amma təəssüfləndirici haldır ki, onlar da Cem Yılmazdan başqa heç kimi tanımırlar.

Öyünmək, ya da lovğalanmaq üçün deməsəm də, Gürcüstanda ilk dəfə Azərbaycan dilində 2012-ci ildə "Bir nəfərlik komediya" adı altında stand up tamaşası hazırladım. Daha sonra 2014-cü ildə yenə səhnəyə çıxdım və "Monoman" adlı daha böyük bir tamaşanı gerçəkləşdirdim. Tamaşadan əvvəl stand up nədir, indi səhnəyə çıxıb nə edəcəksən deyən şəxslər, tamaşadan sonra növbəti tamaşa nə zaman olacaq deyə, artıq bir sonrakı çıxışımı gözləyirdi. Bu onu göstərirdi ki, bizlərə xeyli yad olan bu janr artıq özünü doğrultmaq üzrədir.

"Stand-up comedy" nədir? Bu janrın adını birbaşa dilimizə çevirsək, ən yaxşı halda "Ayaqüstü komediya" olar. Stand-up sənətçisi tamaşa boyu tək başına 1 saat, bəzən 2-3 saat gülməli hadisələr, hekayətlər danışmalı olur. Bunu danışarkən də əsasən ayaq üstə olurlar. Stand-up hər nə qədər teatrın bir növü olsa da, sadəcə teatr salonlarında yox, eləcə də barlarda, kafe və restoranlarda da nümayiş olunur. Buna səbəb stand-up tamaşasının elə də ciddi bir dekorasiyaya, qrim və kostyuma ehtiyacının olmamasıdır. Kiçik bir səhnə, bir qrup tamaşaçı, bir də mikrofon. Bunlar olduqdan sonra istərsəniz yatağınızdan pijama ilə qalxıb çıxın səhnəyə. Stand-up haqqında bilinən ən böyük yanlışlardan biri də stand-up sənətçisinin mütləq qara geyinməli olması fikridir. Buna səbəb olaraq isə, qara paltarın sadə olması və beləcə tamaşaçının diqqətinin sadəcə aktyorun danışdıqlarına yönəlməsi fikri önə çəkilir. Amma bu tamamilə boş söhbətdir. Bu gün bir çox məhşur stand-up sənətçisi səhnəyə istədiyi kimi, istənilən rəngdə patlarla çıxır.

Keçdiyimiz aylarda yeni bir stand-up tamaşası vermək üçün bir teatr salonu ilə icarə əsasında anlaşmaq niyyətində idim. Teatrın xanım administratoru ilə görüşdükdə, o məndən stand-up tamaşasının nə olduğunu soruşdu. Mən də izah etməyə çalışdım. Tam anlamadı. Mən də bir neçə məhşur stand-up sənətçisinin adını sadaladım. Cim Kerrinin adını çəkəndə, anladığını söylədi və: - Klounluq edəcəksən eləmi? - deyə, soruşdu. Qəribəsi odur ki, bu xanım teatrşünas olduğunu iddia edirdi. Klounluq? Maraqlıdır. Stand up doğrudan da təlxəklik sənətidirmi? İndi gəlin, bu sənət növünün tarixinə nəzər yetirək.

Leni Brüs – 1925-ci ildə anadan olan amerikalı stand-up sənətçisi. 1960-cı illərdə hazırladığı stand up şouları ilə ölkəni bir-birinə qatmışdı. O stand-uplarında əsasən sosial tənqidlər edirdi. Açıq və sərt zarafatları dövləti narahat etmiş və mühakimə olunmuşdu. Brüsün həyatı daha sonra bir çox filmlərə mövzu oldu.

Corc Karlin – 1937-ci ildə dünyaya gələn, Leni Brüsün 40 yaşında vaxtsız vəfat etməsindən sonra onun davamçısı olaraq göstərilən, Comedy Central – Komediya mərkəzi kanalı tərəfindən bütün zamanların ən yaxşı 100 komediya aktyoru siyahısında ikinci sırada yer alan stand-up sənətçisi. Danışıq tərzi, psixoloji və dini mövzularda sərhəd tanımayan tənqidi zarafatları ilə məhşur olmuşdur. Yazdığı və səhnədə oynadığı "Yeddi kirli kəlimə" adlı stand-up şousu 1978-ci ildə Amerika məhkəməsi tərəfindən qadağan edilmişdi.

Gördüyünüz kimi, stand-up sənətçiləri təlxək deyillər. Olduqca ciddiyə alınan, hər sözü gündəmi dəyişə biləcək potensiala sahibdirlər. Çünki, necə deyərlər, sözün düzü zarafatda deyilir.

Anar RAFİQOĞLU

# ZƏRGƏR MUSA - DOSTLARIN SIĞINDIĞI YENİLMƏZ QALA



Zərgər Musa bir mənimmi dostum idi, bir mənimmi könül sirdaşım idi? Bu sualın cavabı o qədər şaxələnir ki, az qala tüklərim biz-biz olur. Nədən ki, Zərgər bir mənim deyil, bəlkə də hamımızın, elə sənin də, mənim də, elə onun da dostu idi. Niyə belə söylədiyimin, niyə belə düşündüyümün min bir səbəbi də yox deyil. Böyüklə böyük idi, kiçiklə kiçik. Bir onu deyim ki, Zərgər Musa məndən çox-çox əvvəl aralarındakı böyük yaş fərqinə baxmayaraq, rəhmətlik atam Muxtar kişi ilə can bir qəlbdən dost idi. Bunu bilənlər bilir və mənim bunu burada təkrarlamağım bəlkə də bir çoxları üçün yersiz, bəlkə də ucuz reklam kimi görünə bilər. Amma istəsək də, istəməsək də bunun belə olduğunu elə mən qarışıq çoxlarımız təsdiqləyə bilərik. Zərgər Musa dost adam idi. Bunu inkar edə biləcək birisini Borçalıda, Qarayazıda günün günortasında əli çıraqlı axtarsaq da yəqin ki, tapa bilmərik.

Yəni mənim deməyim ondadır ki, dost yolunda boran olar, qar olar prinsipini də bilməmiş deyildi. Üstəgəl, qardaşımız dost yolunda malından-mülkündən, bəlkə də canından keçə biləcək nadir insanlardan biri, bəlkə də birincisi idi.

Mal-mülk demiş, Musa, sözün yaxşı mənasında dünya malından olanının dəlisi adam idi. Tanımadığı, heç tanımağı ağlının ucundan belə keçirmədəyi adamların yolunda pul xərcləmək qardaşımız üçün su içimi qədər asan bir məsələ idi. Musanı tanıyanların əksəriyyəti təsdiq edə bilər ki, o, tanıdığı və ya tanımadığı istənilən adam üçün varından-yoxundan çıxa biləcək nadir şəxsiyyətlərdən biri idi. Musa üçün önəmi yox idi ki, yolunda pulunu xərclədiyi adam kimdir. Ağıllıdırmı, dəlidirmi və ya müsəlmandırmı, kafirdirmi? Dəfələrlə bu sətirlərin müəllifi Musaya sual verib ki, a Musa, hörmət etdiyin adam kimdir, tanıyırsanmı? Mən Musanın yerinə and içə bilərəm ki, Musa onların əksəriyyətini tanımırdı. Təbiətindən gələn xeyirxahlıqla Musa tanıdığı və ya tanımadığı insanlara yardım etmək istəyirdi. Deməyim odur ki, Musa malının-mülkünün başından keçən dərviş ruhlu könül adamı idi. Bunun belə olmadığını, bunu yalana çıxırıb üstündən xətt çəkəcək birisini inanıram ki, hələ anası doğmayıb.

Musa, bizim can dostumuz Musa Zərgəri deyirəm, söz adamı idi. Dostumuz onu da çox gözəl bilirdi ki, söz Allahın bəndələrinə qoyduğu ən böyük mirasdır. Musa bilməmiş deyildi ki, Tanrı bu gözəlim dünyanı bir "ol" sözündən yaradıb. O üzdən də, Musa sözündə-söhbətində ehtiyatla hərəkət edən, sözə canı-qanı kimi baxan, sözə xəyanət etməyi ağlının ucundan belə keçirməyən könül adamı idi. Əlimizdə olan üç kitabı dediklərimizi doğrulamaq üçün ən böyük istinadgahlarımızdandır. Elə bu kitabları da, adicə dost-tanışla münasibətlərində bu və ya digər məsələlərə münasibətində sərgilədiyi sarsılmaz mövqeyi də Musanın haqq yolçusu olmasına dəlalət edir. Orasını da fəxrlə vurğulayım ki, bu mövqeyi Musanı dostları arasında inadkarlığı ilə fərqləndirirdi. Nədə idi dostumuzun inadkarlığı? Kiminsə evini yıxmaq, kiməsə badalaq qurmaq, haqqı qoyub nahaqqı danışmaq onun təbiətinə yad idi. Onun inadı, inadkarlığı haqqın təntənəsi, doğrunun qələbəsi naminə ortaya çıxan bir hal idi. Bütün dostlar, elə mən də onu haqq yoluna yolçu etdikdən sonra anladıq ki, dostumuzun höcət kimi görünməsi haqq adına imiş.

Musa böyük bir dünya idi. Heç kimin yenə bilməyəcəyi, kimsənin təslim edə bilməyəcəyi bir qala idi. Qarayazıda bizim Musa adlı yenilməz bir qalamız var. Heç bir yağının fəth edə bilməyəcəyi, dostların qalası. Adını rəhmətlə anacağımız Zərgər Musa adlı bir qala.

Afiq Muxtaroğlu

# ŞAİR ZƏRGƏR MUSA ƏBƏDİYYƏTƏ UĞURLANDI

Avqustun 5-də əbədiyyətə uğurlanan şair Zərgər Musa (Musa Əsgər) ilə onun Qardabanidəki evində vida mərasimi keçirilib..Mərasimi şairin yaxın dostu, Azərbaycan Yazıçılar Birliyi Gürcüstan bölməsinin rəhbəri Rafiq Hümmət açaraq, Zərgər Musanın həyat və yaradıcılığı barədə danışmış və onun vaxtsız vəfatının həm Gürcüstan, həm də Azərbaycan yazarları üçün böyük itki olduğunu dilə gətirmişdir: "Zərgər Musa o şairlərdən idi ki, yazdıqları ilə yaşadıqları arasında təzad yox idi. O, hər zaman öz səmimi vətəndaş mövqeyi ilə seçilirdi: Gürcüstanın da, Azərbaycanın da çətin günlərində bir an belə düşünmədən yardıma qaçan, heç nəyini əsirgəməyən əsl millət oğlu idi. Zərgər Musa bizlərə miras olaraq, üç kitabı ilə birgə, üç gözəl, əxlaqlı və xeyirxah övlad qoyub getdi. Hamımızın başımızın sağ olsun..", - deyə Rafiq Hümmət bildirib. "

Sonra şairin yaxın dostlarından Rustavi şəhər meriyasının məsul işçisi Bəhram İsayev, "Yeni yol" qəzetinin redaktoru Afiq Muxtaroğlu, dövlət qulluqçusu Firdovsi İsgəndərov çıxış etmiş, öz ürək sözlərini dilə gətirmişlər. Gücüstan müsəlmanlarının baş müftisi Yasin Əliyev mərhumun ruhuna dualar oxumuş və ona uca Rəbbimizdən rəhmət diləmişdir. Gürcüstanın dörd bir yanından şairlə vidalaşmaq üçün gələn çoxsaylı insanlar arasında sənət dostları – İbrahimxəlil,




Tapdıq Yolçu, Kamandar Mamocoğlu, Əsəd Əliyev, Cambul Məmmədli, Akif Xansultanlı, Əbdüləli İbrahimsoy, Abay Paşayev, Azər Musaoğlu, Fazil Bayramov, Binəli İslamoğlu, Anar Rafiqoğlu və başqaları da olmuşlar.

Xatırladaq ki, xeyli vaxt ağır xəstəlikdən əziyyət çəkən və avqustun 3-də vəfat edən Zərgər Musa 1955-ci ildə Dmanisinin (Başkeçidin) Dağ-Arıxlı kəndində doğulub. Orta məktəbi Qardabani şəhərində bitirib. Dövri mətbuatda, toplu-almanaxlarda davamlı olaraq öz şeir və poemaları ilə çıxış edib. Müxtəlif illərdə iki şeir və bir pyeslər kitabı "Azərbaycan Yazıçılar Birliyi Gürcüstan bölməsinin nəşri" seriyasından Tbilisidə nəşr olunmuşdur.

Məkanı nurla dolsun!

R. ANAR

# DOSTLAR BAĞIŞLASIN...

(Əziz dostum Zərgər Musanın xatirəsinə)

Mən yoxam... toplaşıb qullar qol çəkir...
Atam bu gün mənsiz qan verir, gülüm.
Anamın görməyən gözü yol çəkir,
Dostum önümdəcə can verir, gülüm.

Hər kəs öz işində, öz qeybətində,
Kimə nə – harası ağrıyır kimin...
Son ümid – ölümün səltənətində,
Döyüm qapısını hansı həkimin?..

Hər gün bir imtahan, hər gün bir sınaq,
Bir-bir qapıları bağlayır Allah.
Bəlkə də bu saat mənə baxaraq,
Göydə hönkür-hönkür ağlayır Allah.

Dostlar bağışlasın – başqa nə yazım?
Mən saxta təbəssüm göndərəmmirəm.
Axı mənim kimi dost nəyə lazım? –
Bir tərsi düzünə döndərəmmirəm.

...Zalım ayrılığı bunca sevməyin,
Dərdi torpaq ilə bölməyin, dostlar.
Mənə nifrət edin, daş atın, söyün,
Amma yalvarıram, ölməyin, dostlar.

...Mən yoxam... tap məni, özündə saxla,
Qoy elə səndəcə gizlənim, gülüm.
Çətindi yaşamaq bu qədər ahla,
Qoyma ölümlərə özlənim, gülüm...

Rafiq HÜMMƏT

# BAŞSAĞLIĞI

Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı

**şair Zərgər Musanın**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.
Allah rəhmət eləsin!

Azərbaycan Yazıçılar Birliyinin Gürcüstan bölməsi

**şair Zərgər Musanın**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.
Allah rəhmət eləsin!

Tbilisidəki "Varlıq" Mədəniyyət Mərkəzi

**şair Zərgər Musanın**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.
Allah rəhmət eləsin!

Musa Hacıyev, Hacı Bəkiroğlu, Elsevər Əhmədov, Habil Əliyev, Bəxtiyar Tanrıverdiyev, Ramin Əhmədov, Elman Şirinov, Elmar Eminov, Paşa Mehrəliyev, Şəhadət Mehrəliyev, Ərşad Əhmədov, Hələbi Muradov, Rəhim Abdullayev, Vaqif Vəliyev, Əlləzəliəfəndi İbrahimov, Yavər Naibov, Rafael Əhmədov dostları Sahib və Samir Əsgərovlara

atalari **Zərgər Musanın**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.
Allah rəhmət eləsin!

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

15 avqust 2015-ci il
№005 (05)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | "გზა" საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci ildən nəşr olunur

## "ŞEYX SƏNAN" GÜRCÜ DİLİNDƏ SƏHNƏYƏ QOYULACAQ

Böyük dramaturq Hüseyn Cavidin "Şeyx Sənan" əsəri ilk dəfə gürcü dilində səhnəyə qoyulacaq.

Axar. az xəbər verir ki, Akademik Milli Dram Teatrı və Gürcüstanın K.Marcanişvili adına Akademik Dram Teatrı tamaşa ilə bağlı birgə layihə hazırlayıb.

Layihə çərçivəsində "Şeyx Sənan" faciəsi hər iki ölkənin teatrında Azərbaycan və gürcü dilində tamaşaya qoyulacaq. İlk nümayiş Bakıda, ikinci nümayiş isə Tiflisdə baş tutacaq.

Qeyd edək ki, əsərdə birinci hissədə hadisələr Bakıda, ikinci hissədə isə Tiflisdə baş verir. Ona görə də birinci hissə Azərbaycan dilində, ikinci hissə isə gürcü dilində oynanılacaq.

"Şeyx Sənan" faciəsi gürcü dilinə tərcümə edilib və əsərin gürcü dilində olan nüsxəsi Gürcüstandan Azərbaycana göndərilib.



## „შეიხ სანანი" ქართულად დაიდგმება

დიდი დრამატურგი ჰუსეინ ჯავიდის ნაწარმოები „შეიხ სანანი" პირველად იქნება დადგმული ქართულ ენაზე. ახარ.აზ წერს, რომ აზერბაიჯანის ნაციონალური აკადემიური დრამატული თეატრი და საქართველოს კოტე მარჯანიშვილის სახელობის სახელმწიფო დრამატული თეატრი ამზადებენ ერთობლივ პროექტს, რომლის ფარგლებშიც ტრაგედია- „შეიხ სანანი" წარმოდგენილი იქნება ორივე ქვეყნის თეატრებში აზერბაიჯანულად და ქართულად. პირველი სპექტაკლის ჩვენება მოხდება ბაქოში, ხოლო მეორეს თბილისში შემოგვთავაზებენ. აღსანიშნავია, რომ პირველი ნაწილის ამბები ბაქოში, მეორე კი თბილისში ხდება. ამიტომაც, პირველი ნაწილი აზერბაიჯანულად, მეორე ნაწილი კი ქართულად იქნება წარმოდგენილი.„შეიხ სანანი" თარგმნილია ქართულად და ნაწარმოების ქართული ვერსია გაგზავნილია საქართველოდან აზერბაიჯანში.



## GÖZDƏN ƏLİLLƏR ÜÇÜN PLANŞETİN MÜƏLLİFİ AZƏRBAYCANLIDIR



Layihə ciddi görmə problemli insanların oxuyub-yazması üçün tərtib edilən Brayl əlifbasının adına uyğun olaraq «Braille Pad» adlanır.

Sevindirici haldır ki, görmə qüsurlular üçün planşet – «BraillePad» layihəsinin rəhbəri Rəşid Əliyev ABŞ Dövlət Departamentinin Elm Və Texnologiyalar Vasitəsilə Qlobal İnnovasiyalar (GIST) proqramının 15 finalçısı sırasına düşə bilib.

Rəşid Əliyevin elektron məlumatların köçürülməsi layihəsi digər 749 layihə ilə yanaşı, həmin proqramda təqdim olunub.

Layihə rəhbərinin dediyinə görə, layihə üzərində işi dayandırmaq istədiyi vaxtda Dövlət Departamentinin rəsmisi onunla əlaqə saxlayaraq, layihəsini yekunlaşdırmağı və yarışa qatılmağı tövsiyə edib.

Beynəlxalq səsvermə və qiymətləndirmə prosesindən sonra Rəşid Əliyev finalda iştirak üçün Keniyaya yola düşüb. Azərbaycanlı startapçı orada yeni biznes əlaqələri yaratmağa, eləcə də ABŞ prezidenti Obamanın canlı çıxışını dinləməyə nail olub.

## "MAQNİT ADAM" QƏLƏBƏ ÜÇÜN GİNNESSİN ÇİNDƏ KEÇİRDİYİ ŞOUYA GEDİR



Gürcüstanlı rekordçu, 44 yaşlı Marneuli şəhər sakini "maqnit adam" adlandırılan Etibar Budaqlı Elçiyev Çində keçirilən Ginnessin beynəlxalq rekordlar şousunda yeni dünya rekordu müyyən etməyə hazırlaşır.

Qafqazın dünya rekordları Federasiyasına başçılıq edən rekordçu belə deyib ki, uğur qazanmaq üçün uzun müddət hazırlaşıb və Çində altı nümunəvi nömrədən ibarət proqramla çıxış edəcək. Onlardan ən çətini Etibarın bioenergetik bacarığının köməyi ilə ümumi çəkisi 2200 kiloqram olan, iki bir-birinə bağlanmış maşını yerindən tərpədib bir neçə metr aparmaqdır.

Etibarla birlikdə Çinə gedəcək Gürcüstan Rekordlar Klubunun başçısı Şota Keldişvili qeyd etmişdir ki, səfər avqustun 10-dan 19-dək davam edəcək.

"Etibarı bir neçə il qabaq 50-dən çox dəmir qaşığı bədəninə yapışdırıb daxili enerjisinin köməyi ilə bədənində saxladıqdan sonra "maqnit adam" adlandırdılar. Sonra uğurlar daha da mürəkkəbləşdi. O, bədənində saxlaya biləcəyi əşyaların sayını artırmağa başladı", – Keldişvili məlumat vermişdir.

Çinə səfər ərəfəsində Tbilisidəki idman komplekslərinin birində məşq zamanı Etibar bədənində dəmir əşyaları necə saxladığını nümayiş etdirmişdir. Xüsusilə də o, 30 saniyə ərzində 18 kiloqramlıq metal konstruksiya üzərində oturmuş adamdan ibarət ümumi çəkisi 85 kiloqram olan yükü əllərinin köməyi olmadan saxlamışdır.

Etibar Budaqlı isə öz növbəsində bunları söyləyib: "Adım artıq Ginnesin rekordlar kitabına daxil olub. Mən həmçinin bioloji təbabətlə məşğulam. Bu da çinli mütəxəssislərin diqqətini cəlb edib. Çində mən bədənimə yeni metal hissələr, 18 kiloqram ağırlığında dəmir lövhə yapışdıracağam, iki minik avtomobilini bir neçə metr dartacağam. Eyni zamanda, tibetli alimlər, həkimlərlə görüşəcəyəm".

## ARXEOLOQLAR TBİLİSİDƏ NADİR HAMAM AŞKAR EDİBLƏR



Arxeoloqlar Tbilisidə təbii isti su ilə işləyən hamam aşkar ediblər. Halbuki, həmin dövrdə digər hamamlarda su süni şəkildə qızdırılırdı. Güman olunur ki, bu hamam əyanlara xidmət edirmiş. Arxeoloqlar hamamı kükürd hamamları ərazisində üzərə çıxarıblar.

Tapıntı təxminən I-III əsrlərə aid edilir. Həmçinin iki min il əvvələ aid şüşə və dulus məmulatı, eləcə də sikkə kimi artefaktlar tapılmışdır. Indiyədək arxeoloqlar təmizləmə işləri həyata keçirirlər.

"Rustavi 2" televiziyasına müsahibəsində ekspedisiyanın rəhbəri, Milli muzeyin arxeologiya mərkəzinin əməkdaşı Merab Dzneladze məlumat verib ki, hamam çar səviyyəli əyanlar üçün nəzərdə tutulubmuş. Öz konstruksiyasına görə, bu hamam Gürcüstanda bir dənədir.

## "BARSELONA"-"SEVİLYA" GÖRÜŞÜ TBİLİSİDƏ FUTBOL BAYRAMINA ÇEVRİLDİ

Müxtəlif ölkələrdən minlərlə azarkeş UEFA Superkuboku uğrunda "Barselona" – "Sevilya" matçını izləmək üçün Tbilisiyə axın etmişdi. Azərbaycandan, Türkiyədən, Rusiyadan, Yaxın Şərqdən, Mərkəzi Asiyadan məhz bu matçı seyr etmək üçün minlərlə insan gəlmişdi.

Böyük futbol bir neçə saatlıq da olsa insanları öz problemlərindən, fikir ayrılığından, qarşıdurmadan uzaqlaşdırıb, ortaq məxrəcə gətirə bildi.

Təsisçi:
"Gürcüstan gənclərinə Yardım və Maarifləndimrə Təşkilatı"

Redaktor:
Afiq Muxtaroğlu
Yayım Direktoru:
Hacı Bəkiroğlu

Ünvan: Qardabani şəh, Kolxoz küç, 4
Tel/ (+995) 595 92 25 70
599 54 12 92
email: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir.
Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər.
Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır.
Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.